Respublika .- 2025.- 3 iyun (№ 114).- S.20.

Ankara

# Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə konsert







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 fevral 2025-ci il tarixli Sərəncamı ilə bu il dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, musiqişünas-alim, publisist, dramaturq və pedaqoq, ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, akademik Üzeyir Hacıbəylinin (1885-1948) 140 illik yubileyi ölkəmizdə və xaricdə müxtəlif tədbirlərlə qeyd olunur.**

Ankarada da böyük musiqi xadiminin yubileyi təntənəli şəkildə qeyd edilib. Yubiley münasibətilə "Çanaqqaladan Qarabağa: Zəfər dastanı" adlı konsert keçirilib.

Opera sənətçilərinin iştirakı ilə baş tutan gecə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Opera və Balet Baş İdarəsinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova və Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Opera və Balet Baş İdarəsinin müdir müavini Volkan Akkoç çıxış ediblər.

Səadət Yusifova deyib: "Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Üzeyir Hacıbəyli Azərbaycan musiqi elminin əsasını qoyan alim kimi də tanınır. Onun "Azərbaycan türk musiqisinin əsasları" adlı əsəri, xalq musiqisinin elmi təhlilinə həsr olunmuş ilk sistemli tədqiqatlardan biri sayılır. O, muğamın notlaşdırılması və sistemləşdirilməsi işini də ilk dəfə həyata keçirib. Bu sahədəki fəaliyyəti ilə o, musiqişünaslıq elminin banisi kimi tarixə düşüb. Üzeyir Hacıbəyli, eyni zamanda parlaq bədii dühası sayəsində də Azərbaycan dramaturgiyasına dəyərli töhfələr verib, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazıb".

Çıxışlardan sonra Xalq artistləri Azərin və Azər Zeynalovun, eləcə də qardaş ölkədən Kamil Kaplan, Çinar Onur, Güner Erkan və başqa tanınmış opera sənətçilərinin ifasında bir-birindən maraqlı musiqi nömrələri təqdim olunub.



**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**